

AYGÜN SADİQ

## ƏSİR YURD

Bu evin içində ölmüşəm o vaxt,
Bu evdə hər gecə dolaşır ruhum.
Divarlar nələrə şahiddir, Allah,
Yadıma düşdükcə dağılır yuxum...

...Qonaq-qaralıydı bizim bu yerlər,
Müsafir olana qapı açıqdı...
...Hələ divarları qalır, deyirlər -
Divarlar bizdən də dözümlü çıxdı!

Aldanıb uyduqca hiylələrinə
Çıxıb başımıza, tapdalayıbdı!
Haqqını savaşla almaq yerinə,
İmzayla dilənmək, vallah, ayıbdı!

Adam arasında dilim qısaldı,
Azaldı qolumun gücü, təpəri...
Daha şərəf sözü adıma yaddı
Düşmən tövləsində qalandan bəri.

Anam! Sən bağışla məğlubluğumu,
Çıxara bilmirəm səni tövlədən!
İndi qınayırsan: "övladım bumu?!"
Haqlısan! Ölmüşəm! Yaşamıram mən!

Əsir YURD! Haqqını halal eyləmə!
Bumbuz bulaqların qənimim olsun,
Qoy Allah canımı alsın, yerinə
Sənə layiq olan övlad doğulsun!

Əsir aparılan sən olmadın, qız,
Mənim adım-sanım, şərəfim olmuş!
Deyirlər, düşmənə əyilməmisən...
Qeyrətinə qurban! Ruhuna alqış!

Nə bir anlayan var böyük dərdimi,
Nə də ixtiyar var bir kəlmə dinim.
Vətən! De, məkanın həmin yerdimi?
Hələ ordamıdır qızım-gəlinim?

## QAYIDIR

Tərk edib getdiyin ruhumu tanı:
Tez-tez keçmişdəki günə qayıdır.
Gündüzlər dolanır düzü-dünyanı,
Gecələr bir uzaq tinə qayıdır.

Bəzən o susdurur könül fəryadın,
Onunçün adlanır "daşürək qadın",
Silir misra-misra ürəkdən adın,
Həsrət taleyinə yenə qayıdır.

Yuyur savabıyla günah ləkəsin,
Gözlərdə parlayır tövbə həvəsi,
Başının üstündə tanrının səsi....
Üsyankar bir könül dinə qayıdır.

Şikayət eləmə öz həyatından,
Onu suçlamağı çıxart yadından,
Haqqına girdiyin həmin qadından
Sənin günahların sənə qayıdır.